# Bəstəkarların günü

**Təqvimdə vaxtaşırı qəribə bənzərlik, üst-üstə düşmələr həmişə diqqətimi çəkib. Bilmirəm, müəmmalara, sirli əlamətlərə, onları öyrənib araşdırmağa meyilli olmağımdandı, ya nə? Mən belə təqvim hadisələrinə həmişə bir ad verirəm: "tarixin pıçıltısı..." Tarix-zaman nəyisə təkrarlamaq, işarə etmək istəyərkən əvvəlcə dejavyu, təkrarları göz önünə sərir. İşarəni havadaca tutanlar mənim qədər hadisələrə don geyindirmək mərəzindən uzaq olsalar da, ən azından diqqətə alırlar. Adətən, təqvimin eyni günündə maraqlı təkrarlar və ya zidlər gördüyümdə qeyd edib oxuculara çatdırmağa çalışıram. Bu dəfə də ənənəmə sadiq qalmaq niyyətindəyəm.**

Dünənki tarixdə qərb dünyasının tütünü kəşf etməyi ilə ona qadağa qoyması bir gündə baş vermişdi. Amma arada 379 il fərqlə. Görəsən, ABŞ prezidenti ictimai yerlərdə siqaretə məhdudiyyət qoyub, eyni zamanda "Siqaret çəkmək sağlamlığınıza ziyandır" xəbərdarlığını qutulara vurdurmaqla, bu tarixi günü bilərəkdən seçmişdi, ya tam təsadüf idi. Əgər ikincisidirsə, istənilən halda təsadüf olmur, zərurətin nəticəsi olaraq meydana gələn həyati hadisədir.

Bugünkü tarix isə istənilən halda insan əliylə təkrarlana bilməz. Çünki doğum və ölüm bizdən asılı olmadığına görə, o zaman bu üst-üstə düşmələr təsadüf adlandırdığımız zəruriyyətdən doğub. Bu gün dünyanın başqa-başqa millətlərdən olan bəstəkarlarının doğum və xatirə günüdür. Yenə də aralarında böyük zaman fərqi ilə. Xoş təqvimdir - dünyanın musiqi ustadları, ilahi görəvləri yaratdıqları bəşəri əsərlərlə ruha sığal çəkmək olan bu dahilər tarixin eyni günündə dünyaya göz açıb və ya əbədiyyətə qovuşublar. Başqa sözlə, hər iki dünyada əbədiyyətlərini təsdiqləyiblər. Bir sözlə, TƏQVİMİN BU GÜNÜ BƏSTƏKARLARIN GÜNÜDÜR.



**1741 - Antonio Vivaldi** - Məşhur İtaliya bəstəkarı. Ona dünya skripka sənətinin atası da demək olar. Həm də musiqi müəllimi olduğu üçün saysız-hesabsız skripkaçılar yetişdirib. 90 operanın müəllifi olan Vivaldi elə sağlığında dünya şöhrəti qazana bilib. Avropanın hər yerində müxtəlif konsertlər təşkil etməklə, musiqisevərlərin zövqünü oxşayıb. Onun bəstələrinin çoxu qadın ansamblı üçün nəzərdə tutulub. Bununla da bəstəkar qadınların ansambllara cəlb olunmasına müsbət təsir göstərib. Təəssüf ki, bu böyük bəstəkar ömrünün son illərini yoxsulluq içərisində keçirib.

**1750 - İohan Sebastian Bax** - Görkəmli alman musiqiçisi, bəstəkarı, pedaqoqu. Eyni zamanda, virtuoz-orqanist, Barokko dönəminin təmsilçisi. 65 illik ömründə 1000-dən artıq əsər yazıb. Maraqlıdır ki, hər janra müraciət etsə də operadan yan keçib. Bax polifoniyanın (çoxsəslilik) ustadı sayılır. Gərgin iş rejimi nəticəsində Baxın ömrünün sonlarına yaxın görmə qabiliyyəti zəifləyir. O vaxt Leyptsikə gəlmiş Con Teylor adlı oftalmoloq onun gözlərini əməliyyat edir və hər iki cərrahi müdaxilə uğursuz alınır. Bax tamamilə kor olur. Üstəlik, əməliyyatdan sonra ağırlaşmadan dünyasını dəyişir. Yeri gəlmişkən, C. Teyloru öz ölkəsində şarlatan adlandırdıqları üçün Almaniyaya qaçıb gəlmişdi.

**1937 - Müslüm Maqomayev** - Azərbaycanın görkəmli bəstəkarı, dirijoru, qaboy ustası. Özünün möhtəşəm "Şah İsmayıl" operası ilə məşhur olan Maqomayev Azərbaycan klassik musiqisinə çoxsaylı əsərlər bəxş edib. O həmçinin, ictimai xadim olub: Musiqili Teatrın bədii rəhbəri, Xalq Maarif Komissarlığının Azərbaycan bölməsinə rəhbəri vəzifələrini icra edib. Hazırda Azərbaycanın Dövlət Filarmoniyası onun adını daşıyır.

**1935 - Vasif Adıgözəlov** - Xalq artisti, bəstəkar. Muğam ustası Zülfü Adıgözəlovun ailəsində dünyaya göz açmış Vasif Adıgözəlov 2 opera: ("Ölülər", "Natəvan), 5 musiqili komediya, 4 oratoriya, 3 kantata, 4 simfoniyanın, çoxsaylı mahnıların, film musiqilərinin müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, I katibi, M. Maqomayev adına Dövlət Filarmoniyasının baş musiqi redaktoru, A. Zeynallı adına Bakı Musiqi məktəbinin direktoru və s. vəzifələrdə çalışıb.

Beləcə, təqvimin növbəti tarixi ardıcıllığında görüşmək ümidiylə...

**Şəfiqə ŞƏFA**